# Hüseyn Nihal Atsız yaradıcılığında milli duyğu və düşüncələr



Aydan Umudova

Türkiyə ədəbiyyatı tarixinin milliyyətçi yazıçısı, şair, tarixçi və ideoloq Hüseyn Nihal Atsız özünü "Türkçü" və "Turançı" kimi tanıtmış və ədəbiyyat sahəsində türkçülük və milliyyətçilik ideologiyasının inkişafında misilsiz xidmətləri olmuşdur.

Hələ gənc yaşlarından Nihal Atsız artıq türk folkloru və türk tarixi ilə maraqlanmağa başlamış, onun "Türkiyyət" məcmuəsinin II cildində nəşr olunan "Anadoluda türklərə aid yer adları" məqaləsi müəllimi, məşhur ədəbiyyatçı Məhməd Fuad Köprülü tərəfindən maraqla qarşılanmışdır. 1930-cu ildə Nihal Atsız universiteti müvəffəqiyyətlə bitirmişdir. Onun tələbə yoldaşları arasında məşhur ədəbiyyatçılar: Nihad Sami Banarlı, Tahsin Banguoğlu, şair Orxan Şaiq Gökyay kimi simalar olmuşdur. Hüseyn Nihal Atsız 1931-ci ildə "Adsız məcmuə"sini nəşr etməyə başlamış və bu jurnal "türkçü", "kəndli" jurnal kimi tanınmaqdadır. Bu jurnalda Nihal Atsız türkçülüklə bağlı düşüncələrinə yer vermiş, həmçinin özünün ilk yazılarını və ilk hekayələrini də burada nəşr etdirmişdir.

Ədirnədə işləyərkən yazıçı "Orhun" jurnalını çap etdirmiş, lakin bu jurnal liseylərdə tədris üçün Türk Tarix Qurumu tərəfindən çap olunan "Türk tarixi" dərsliklərini tənqid edən məqalə dərc etdiyinə görə fəaliyyəti dayandırılmışdır. Sonra yenidən nəşr olunan jurnalda 1944-cü ildə baş nazir Şükrü Saracoğluna açıq məktub dərc olunmuşdur. Bu məktubda Hüseyn Nihal Atsız o dövrdə fəallıqlarını artıran marksist, sosialist fikirləri dəstəkləyənlərdən narahatlıq hissi keçirdiyini bəyan etmiş və o, bu ideyaları yayan bir neçə türk ədəbiyyatçılarının, o cümlədən Səbahəddin Əlini, təhsil naziri Həsən Əli Yücəlin də adını çəkərək istefasını tələb etmişdir. Bu açıq məktub Nihal Atsızın həmkarlarını daha da hiddətləndirmiş, nəticədə Hüseyn Nihal Atsızın Boğaziçi liseyindəki müəllimlik fəaliyyəti, jurnalın nəşri dayandırılmış, Səbahəddin Əli isə onu məhkəməyə verib. Tarixdə bu çəkişməyə "kommunistlərə qarşı türkçülük müharibəsi" adını verdilər. Həmçinin "irqçilik, turançılıq" mübarizəsi kimi yadda qalan bu çəkişmədə Nihal Atsız o dövrün prezidenti İsmət İnönü tərəfindən ciddi şəkildə tənqid edilmiş və məhkəmə qərarı ilə Hüseyn Nihal Atsız 6 il müddətinə azadlıqdan məhrum olunmuşdur. Lakin işi apelyasiyaya verən Nihal Atsız 1945-ci ildə bəraət qazandı.

Bu dövrdən sonra yazıçının həyatında çətin bir dövr başlayır. Belə ki, o maddi çətinliklər səbəbi ilə öz kitablarını sataraq dolanmaq məcburiyyətində qalmışdır. Lakin onu bu vəziyyətdən çıxarmaq üçün tələbə yoldaşı Tahsin Banguoğlu 1943-cü ildə Nihal Atsıza Süleymaniyyə kitabxanasında iş təklif etmişdir. O, bu kitabxanada işə başlamış və özünün türkçü-milliyyətçi, "idealist" düşüncələrindən heç vaxt uzaqlaşmamışdır.



Hüseyn Nihal Atsız həm nəsr, həm də nəzm sahəsində yazıb-yaratmışdır. Onun şeirləri və romanlarının əsas mövzusu türk tarixidir. Yazıçı ən qədim türk tarixini araşdırmış və "Bozqurdların ölümü", "Bozqurdların dirilişi" kimi romanlarında qədim türklərin tarixi dövrlərini canlandırmışdır. Nihal Atsızın digər romanı "Dəli qurd" isə Osmanlı imperatorluğu dövrünü əks etdirir. "Ruh adam" romanı həm tarixi, həm də mistik tərzdə yazılmış bir əsərdir. Burada yazıçı demək olar ki, Səlim Pusat timsalında özünü canlandırmaqdadır. Bu romanda da yenə türk tarixi əks olunmuşdur.

Hüseyn Nihal Atsızın türkçü ruhda yazdığı şeirləri: "Adsız", "Afşinə mərsiyyə", "Eşqinlə", "O gecə", "Mütləq sevəcəksən", "Ayrılıq", "Dəvətnamə", "Bütün türk gəncliyinə", "Dosta səsləniş", "Dünən gecə", "Əbədi qəhrəman", "Əl yazısı ilə yazdığı", "Geri gələn məktub", "Xatirələr", "Qəhrəmanlıq", "Qəhramanların ölümü", "Qaranlıq", "Qızıl alma", "Xanlığa doğru", "Qorxu", "Qəhraman Macar qardaşları", "Salam", "Topal əsgər", "Sona doğru", "Türkün qızı", "Türkçülük bayrağı", "Türklərin türküsü", "Unutma", "Yolların sonu", "Yalnızlıq".

Nihal Atsızın türkçü və milliyyətçi düşüncələrini, idealist fikirlərini, vətənpərvərlik ruhunu əsas götürdüyü ən məşhur şeiri "Türkçülük bayrağı"dır:

***Türk duyğusu hər Türkcüyə ən dadlı qımızdır;***
***Türk ülküsü candan da əziz bayrağımızdır.***

***Zərbəylə könüllərdə yatan ideallıq silinməz!***
***Atsız, yerə düşməklə bu bayraq yere enməz!...***

Hüseyn Nihal Atsız dövrünün bir sıra qəzet və jurnallarında türkçü-milliyyətçi ideyalarını əks etdirən məqalələr yazmışdır: "Anadoluda Türklərə aid yer adları" (Əhməd Naci ilə birlikdə) ("Türkiyyat" məcmuəsi - 1928), "Türklər hansı irqdəndir?" "Adsız" məcmuə - 1931), "İzmirdən səslər" ("Adsız" məcmuə 1931).

Hüseyn Nihal Atsız türkçülüklə bağlı maraqlı fikir və düşüncələrini "Türk məfkurəsi" adlı məqaləsində belə ifadə etmişdir:

"Dünya bir mübarizə meydanıdır. Yaradıcı güc dünyanı bir toqquşma meydanı içində yaratmış, yaradılanlar bu mübarizə içində yaşayıb bu günə çatmışlar. Bunun niyə belə olduğu haqqında yüksək fəlsəfi düşüncələri bir kənara qoyub həqiqəti olduğu kimi qəbul etsək, mübarizəyə hazırlığın ən real, həyati məsələ olduğunu dərk etmiş olarıq.

Mübarizə yaşamaq üçün vacibdir, çünki milli çıxar (mənfəət) qarşıdurmasını bitirmək üçün mübarizədən başqa çıxış yolu yoxdur. Milləti, xalqı milli mübarizəyə hazır saxlayan iki vasitə var: Biri maddidir, buna "texnika" deyirik. Digəri isə ruhidir, buna "məfkurə" adını veririk.

Daxili güc nə deməkdir?

Milli üstünlük inancı, böyümək istəyi, yəni milli məfkurədir. Milli məfkurələr, cəmiyyətin yaradıcı gücüdür. Bütün yaradıcı güclər kimi də uyğunsuzluqları yox etmək xüsusiyyətinə malikdir. Türk yaradıcı gücü, yəni Türk məfkurəsi, yüz illərdən bəri prinsipə çevrilmiş, bir neçə dəfə reallaşmış, həyata keçmiş bir düşüncədir. Ona xəyal deyənlər, xəyallar içində boğulan, tənbəlləşmiş məxluqlardır. Əgər dedikləri kimi xəyal olsaydı, heç reallaşardımı?

Türk məfkurəsi, Türk böyüklüyü və Türk qüdrəti daxili istək və inancdır. İnancın necə böyük ruhi amil olduğunu izah etməyə ehtiyac yoxdur. İmanla ümidsiz xəstələr belə sağalır.

Bir məfkurənin ətrafında toplanmaq və ondan ötrü ölümü belə gözə alaraq savaşmaq nə gözəl şeydir! İnsanlar ancaq məfkurə ilə heyvanlardan ayrıla bilirlər. Milli bir məfkurə olmadıqdan sonra insanın heyvandan nə fərqi var? Heyvan ölümdən və əzabdan qaçar, güclüdən qorxar. Ölümdən qorxmayan, əzabdan qaçmayan, güclü ilə mübarizəni gözə alan canlı ancaq məfkurəçi insandır.

Yüz illərcə tək başına bütün Avropa xalqlarına qarşı Tanrının adını müdafiə edən Asiya aslanları zaman-zaman qəflət yuxusuna dalmışlar, ancaq sonra oyanıb güclənmişlər. Budəfəki dalğınlıq bir az təhlükəli kimi görünür, çünki içində yadlara heyranlıq duyulur. Təhlükələr haradan gəlirsə-gəlsin, nə qədər böyük olursa-olsun, tək çıxış yolu və əlacı "Türk məfkurəsidir".

***Bir şair:***
***Bu torpaq üçün,***
***Bu bayraq üçün,***
***Ölək***
***Fəqət biləк.***

- deyir. Gözəl bir düşüncədir. Türk məfkurəsinin yoluna, izinə düşdüyümüz gün bu şeiri bir az da dəyişdirərək belə söyləyəcəyik:

***Bu torpaq üçün,***
***Bu bayraq üçün,***
***Ölək***
***Nə düşünək, nə də bilək!"***